# Qətiyyət ilə doğrulan vədlər



**Bu gün İlham Əliyevin Azərbaycan Prezidenti kimi ilk dəfə and içməsinin 22-ci ili tamam olur. 2003-cü il oktyabr ayının 31-də Vətənə, dövlətə və xalqa sədaqət andı içən Prezident İlham Əliyev şərəfli və məsuliyyətli missiyasının icrasına başladı. Və bu missiya ilk gündən bütün sahələrdə yüksəlişə yol açaraq, Azərbaycanı tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəltdi.**

Öncə onu qeyd edək ki, 22 il əvvəl, 2003-cü il oktyabr ayının 15-də keçirilən prezident seçkilərində Azərbaycan xalqı Heydər Əliyevin layiqli siyasi davamçısı, Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin ətrafında səfərbər olmaqla, özünün müdrik və tarixi seçimini etdi. Bu seçkilər göstərdi ki, Azərbaycan xalqı Heydər Əliyev siyasi kursu Azərbaycanın inkişafının, respublikamızın aydın və etibarlı gələcəyinin yeganə təminatçısı olaraq qəbul edir. Bu seçim təsdiqlədi ki, ölkə ictimaiyyəti Heydər Əliyev siyasi kursuna heç bir alternativi qəbul etmir. Oktyabrın 31-də keçirilən andiçmə mərasimində göstərilmiş bu böyük etimada görə bütün Azərbaycan xalqına öz dərin təşəkkürünü bildirən Prezident İlham Əliyev böyük etimadı doğruldacağını, bu vəzifənin öhdəsindən layiqincə gələcəyini və Heydər Əliyevin siyasətini davam etdirəcəyini bəyan etdi. Ötən 22 ilin reallıqları Prezident İlham Əliyevin bu sözlərinin real həyata vəsiqə aldığını təsdiq edir.

Ümumiyyətlə, 2003-cü il oktyabr ayının 31-də keçirilən andiçmə mərasimində Prezident İlham Əliyevin etdiyi çıxışı Azərbaycan dövlətinin gələcək inkişafının siyasi yol xəritəsi və ya manifesti adlandırmaq olar. Azərbaycanın yeni Prezidenti proqram xarakterli nitqində ölkənin qarşısında dayanan əsas məqsədlərin, prioritet hədəflərin, strateji vəzifələrin nədən ibarət olduğunu diqqətə çatdırdı, ölkəmizin inkişafı ilə bağlı aktual məsələlərə diqqət çəkdi.

Prezident İlham Əliyevin andiçmə mərasimində toxunduğu məsələlərdən biri sabitliyin qorunması ilə bağlı olmuşdu. "Əlbəttə, bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik".

Ötən 22 ilin ən böyük reallıqlarından biri Azərbaycanda sabitliyin daha da möhkəmlənməsi, xalqımızın rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasının təmin olunmasıdır. Təsadüfi deyildir ki, Azərbaycan təhlükəsizliyin təmini və sabitlik baxımından yalnız yerləşdiyi regionda deyil, bütün dünyada qabaqcıl dövlətlərdən biridir. Bu illərdə respublikamızın keçdiyi dinamik inkişafın təməlində dayanan əsas amillərdən biri məhz sabitlik olmuşdur. Sabitlik və təhlükəsizlik dövlətimizin qarşısında dayanan bütün strateji vəzifələrin uğurla həyata keçirilməsində əsas faktorlardan biri kimi özünü göstərmişdir.

Prezident İlham Əliyevin lider qətiyyəti və siyasi uzaqgörənliyi nəticəsində Azərbaycanın əldə etdiyi ən böyük uğurlardan biri Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu enerji strategiyasının öz bəhrəsini verməsidir. 2003-cü ilə qədər Azərbaycan Respublikası əsasən neftin hasili və ixracı məsələlərində bir çox uğurlara nail olmuş, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasına başlanılmışdı. Andiçmə mərasimində "Azərbaycan öz iqtisadi potensialını inkişaf etdirdikcə, Azərbaycanda yeni neft yataqları kəşf olunandan sonra, Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara veriləndən sonra, əlbəttə, ölkəmizin imkanları daha da artacaqdır. Hər il Azərbaycana milyardlarla dollar vəsait daxil olacaqdır. Bu vəsaitlə Azərbaycanda bütün sahələrdə quruculuq işləri aparılacaq, sosial problemlərin həlli istiqamətində böyük işlər görüləcəkdir", - deyə Prezident İlham Əliyev isə ilk gündən bu məsələni xüsusi diqqət mərkəzində saxladı. Məhz Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasi diplomatiyası ilə erməni lobbisinin və antiazərbaycançı dairələrin Azərbaycanın enerji siyasətinə, BTC boru xəttinin çəkilişinə qarşı apardıqları bütün məkrli kampaniyalar iflasa uğradıldı. Həm BTC neft, həm Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsi Azərbaycan tarixində yeni iqtisadi mərhələnin əsasını qoydu.

Andiçmə mərasimində Prezident İlham Əliyev iqtisadi məsələlərlə bağlı demişdi: "Xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar - təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik".

Neft-qaz kəmərlərinin işə düşməsi yeni iqtisadi islahatların həyata keçirilməsi, qeyri-neft sektorunun inkişafı üçün əlverişli şərait formalaşdırdı. O cümlədən əsas prioritetlərdən olan regionların iqtisadi potensialının hərəkətə gətirilməsi ümumi daxili məhsulda qeyri-neft sektorunun payını artırdı.

Qeyd edək ki, 2003-cü ildə Azərbaycanda ümumi daxili məhsul istehsalı 7 milyard dollar səviyyəsində idi. Lakin təkcə 2025-ci ilin birinci yarısında ölkədə 72 milyard manatdan artıq ümumi daxili məhsul istehsal olunmuşdur və ilin axırında bu rəqəmin 129 milyard manatı ötəcəyi proqnozlaşdırılır. 2003-cü ildə Azərbaycanın valyuta ehtiyatları 1,6 milyard dollar idi. Hazırda isə bu rəqəm 80 milyard ABŞ dollarını ötüb. Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan təxminən 16 dəfə artıqdır. Bu illər ərzində yoxsulluğun və işsizliyin tarixi minimum həddə - 5 faizə endirilməsi ölkəmizin daha bir nailiyyətidir.

Bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlar, regionların sosial-iqtisadi potensialının hərəkətə gətirilməsi, enerji və nəqliyyat layihələrinin uğurla həyata keçirilməsi böyük rol oynayıb. Neftdən gələn gəlirlərdən səmərəli istifadə olunaraq iqtisadiyyata yönləndirilməsi respublikamızda qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının və turizmin inkişafını təmin edib. Təsadüfi deyil ki, hər il dövlət büdcəsinin gəlirlərində qeyri-neft sektorunun payı artır.

Ümumiyyətlə, ötən 22 illik zaman kəsiyi həm də onu göstərir ki, Azərbaycan öz hədəflərinə inamla çatan, hər bir sahədə müstəqil siyasət yürüdən dövlətdir. Bunu Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Cənub qaz dəhlizi" kimi nəhəng infrastruktur layihələrinin həyata keçirilməsi də təsdiq edir. Bu layihələrin həyata keçirilməsi birmənalı şəkildə Prezident İlham Əliyevin müdrik siyasətinə söykənir. Son illərdə enerji təhlükəsizliyinin, o cümlədən nəqliyyat dəhlizlərinin qlobal siyasətdə daha da aktuallaşması Prezident İlham Əliyevin müdrik və uzaqgörən lider olduğunu göstərir.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin ən böyük hadisəsi və ən möhtəşəm uğuru, əlbəttə ki, torpaqlarımızın işğaldan azad olunmasıdır. Cənab İlham Əliyev respublikamıza rəhbərliyinin ilk günündən torpaqlarımızın işğaldan azad olunmasını fəaliyyətinin prioritet istiqamətlərindən biri elan etdi və bu məsələ dövlət siyasətinin mərkəzində dayandı. 2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev artıq öz həllini tapmış Dağlıq Qarabağ problemi ilə bağlı demişdi: "Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Cənab İlham Əliyev hər zaman bəyan etdi ki, sülh danışıqları nəticəsiz qalarsa, Azərbaycan dövləti güc yolu ilə ərazilərini işğaldan azad edəcək. Bu məqsədlə hərbi sferaya dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi ildənilə artırıldı, yeni hərbi çağırışlara uyğun ordu quruculuğu həyata keçirildi, Silahlı Qüvvələrimizin döyüş hazırlığı ən müasir səviyyəyə çatdırıldı. Ermənistanın hərbi təxribatlarından sonra başlanan İkinci Qarabağ müharibəsi isə Prezident İlham Əliyevin hər zaman bəyan etdiyi kimi nəticələndi, Azərbaycan dövləti güc yolu ilə torpaqlarını işğaldan azad etdi. Bununla da Prezident İlham Əliyev həm də Müzəffər Ali Baş Komandan kimi Azərbaycanın müasir tarixinin ən şərəfli salnaməsinin müəllifinə çevrildi. Bu prosesin davamı kimi əzəli Azərbaycan torpağı olan Qarabağda erməni separatizminə son qoyulması və bütün ərazilərimiz üzərində milli suverenliyimizin bərpa olunması Prezident İlham Əliyevin dövlətimiz və xalqımız qarşısında növbəti tarixi xidməti oldu. Bütün bunlar İlham Əliyev cənablarının həm Prezident, həm də Ali Baş Komandan kimi qətiyyətinin təntənəsinə çevrildi. Bu qələbələr Azərbaycanı dünyaya həm də qalib dövlət kimi tanıtdı, nüfuzunu daha da yüksəltdi, xalqımızın başını uca etdi.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri, keçmiş məcburi köçkünlərin doğma evlərinə qayıdışı bir daha Azərbaycanın Zəfərini dünyaya bəyan edir. Bu il avqust ayının 8-də Vaşinqtonda sülh sazişinin paraflanması isə bir daha göstərdi ki, torpaqlarımızı işğaldan azad edən Prezident İlham Əliyevin qətiyyəti sayəsində regionda sülh də təmin olunur.

Ötən 22 ildə Azərbaycanın inkişafı, yüksəlişi, regionda aparıcı və söz sahibi olan dövlətə çevrilməsi, qlobal səviyyədə mövqelərini möhkəmləndirməsi göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulmuş bütün vəzifələr uğurla yerinə yetirilir. Artıq torpaqlarımız azad edilib, ərazi bütövlüyümüz bərpa olunub. Bütün bunlar lider qətiyyəti ilə doğrulan vədlərdir. Yeni tarixi şəraitdə təbii ki, vəzifələr də prioritetlərdə də yenilənir. Bu baxımdan ötən 22 ildə tarixinin ən qüdrətli dövlətinə çevrilən, ağrılı probleminə son qoyan Azərbaycan Respublikası qarşıdakı dövrdə də Prezident İlham Əliyevin liderliyi ilə tarixini əlamətdar uğurlarla zənginləşdirəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 31 oktyabr (№233).- S.4.